# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/23** **27 sentyabr 2021-ci il**

**“Auditorlar Palatasının internet və sosial şəbəkələrdəki səhifələrində auditor fəaliyyətinə dair sosial sorğuların keçirilməsi və ya reytinqlərin müəyyənləşdirilməsi barədə”**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətinin sosial şəbəkələrdə işıqlandırılmasının təkmilləşdirilməsi barədə” 2021-ci il 14 iyul tarixli 1/15 nömrəli sərəncamının 2-ci “Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və müvafiq struktur bölmə rəhbərlərinə (E.İbrahimov, V.Rəhimov, E.Behbudova, V.Cavadov, Q.Əhmədov) tapşırılsın ki, “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası”nın (2021-2030-cu illər) müddəaları əsas götürülməklə zəruri sosial sorğuların keçirilməsinin və ya reytinqlərin müəyyənləşdirilməsinin mövzu və qrafiklərinə dair təkliflərini bir ay müddətində hazırlayıb təqdim etsinlər” bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının struktur bölmə rəhbərlərinin (E.İbrahimov, V.Rəhimov, E.Behbudova, V.Cavadov, Q.Əhmədov) və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təkliflərini nəzərə alaraq **qərara alıram:**

1. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi V.Cavadova, Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, 2021-ci ilin noyabr ayında sorğunun keçirilməsi, nəticələrin emalı və ümumiləşdirilməsi həyata keçirilsin (sorğu vərəqələri əlavə olunur).
2. Auditorlar Palatasının rəhbərliyinə (S.Gülməmmədov, Q.Bayramov, N.Talıbov, F.Qarayev, N.Quliyeva) tapşırılsın ki, sorğunun nəticələri üzrə təkliflər Auditorlar Palatasının 2022-ci il üzrə iş planının layihəsində və ya reytinqlərin müəyyənləşdirilməsi zamanı nəzərə alınsın.
3. Sərəncamın icrasına nəzarət Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova həvalə olunsun.

**Palatanın sədri** **Vahid Novruzov**